**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA**

https://doi.org/10.59849/3006-1342.2024.2.50
UOT 39

*S.Ə.Qasımova*
*AMEA Gəncə Bölməsi,*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*E-mail: samira.qasimova82@mail.ru*
*Orcid: 0000-0002-8736-3909*

# GƏNCƏ XALÇAÇILIQ MƏKTƏBİNİN İNKİŞAF TARİXİNDƏN

*Məlumdur ki, xalçaçılıq sənəti Azərbaycan milli mədəniyyət tarixində özünəməxsus yer tutur. Əsrlər boyu Azərbaycan xalqının məişətində özünə möhkəm yer tutmuş xalçaçılıq millilik rəmzinə çevrilmişdir. Bu qədim sənət növünün uzaq keçmişə aid olduğu arxeoloji tədqiqatlar və yazılı mənbələrlə təsdiqlənir. Azərbaycanda xalçaçılığın təşəkkülünü şərtləndirən təbii iqlim şəraiti, təsərrüfat və məişət amilləri tədricən Quba, Şirvan, Bakı, Gəncə, Qazax, Qarabağ, Təbriz kimi xalça və xalça məmulatları istehsalı mərkəzlərinin yaranmasına səbəb oldu. Həmin mərkəzlərin hər birində xalça məmulatlarının bu və ya digər növünə, yaxud tipinə üstünlük verilir, istehsal edilən xalçalar və xalça məmulatları öz xüsusiyyətləri ilə biri digərindən seçilirdi.*

*Azərbaycanın qədim elm, mədəniyyət mərkəzlərindən olan Gəncədə də xalçaçılıq sənəti tarixən inkişaf etmiş və şöhrət qazanmışdı. Hələ qədim zamanlardan Gəncə bölgəsi əhalisinin məişətində xalça və xalça məmulatları əsas yer tutmuşdur. Əsrlər boyu yüksək keyfiyyətli xalça istehsalı mərkəzi olan Gəncədə xüsusi xalça emalatxanaları olmuşdur. Gəncə xalçaçılıq məktəbi Azərbaycanın şimal-qərbində yerləşən Gəncə şəhəri, onun ətraf kəndləri, Gədəbəy, Goranboy, Şəmkir və Samux rayonlarının ərazilərini əhatə edir. Bu məktəbin mərkəzi Gəncə şəhəri olmuşdur. Tarixən bu məktəb Gəncə ətrafında olan rayonların xalçaçılığına müsbət təsir göstərmişdir. Gəncə xalçaçılıq məktəbinə daxil olan "Gəncə", "Köhnə Gəncə", "Gədəbəy", "Çaylı", "Çıraqlı", "Samux", "Şadılı", "Faxralı" kompozisiyalı xalçalar digər xalçalardan ənənəvi motivlərin özünəməxsus işlənməsi ilə seçilirdi.*

*Açar sözlər:* Azərbaycan, xalça sənəti, Gəncə xalçaçılıq məktəbi, xalça və xalça məmulatları, naxış tərtibatı, özünəməxsusluq

## *Giriş*

Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan toxuculuq məmulatları milli dəyərimiz, milli sərvətimiz olaraq tarixən formalaşmış peşələr içində həmişə xüsusi yer tutub. Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti, müxtəlif təsərrüfat sahələrinin inkişafı, kifayət qədər xammal ehtiyatının bolluğu, çeşidli boyaq maddələrinin mövcudluğu qədim zamanlardan burada toxuculuğun bir çox sahələrinin (həsirçilik, kətançılıq, xalçaçılıq, bəzzazlıq, şalbaflıq, şərbaflıqvə s.) meydana gəlməsinə və inkişafına ciddi təsir göstərmişdir. Bunu təsdiq edən sübutlar–ip əyirmək üçün istifadə edilən sümük iy ucları, daşdan düzəldilmiş həvəngdəstələr, həmçinin həmin həvəng-dəstələrin birinin içərisində nəzərə çarpan qırmızı rəngin izləri arxeoloji qazıntılar zamanı Naxçıvandakı Kültəpə abidəsinin birinci (m.ə. IV-III minilliklər) və Mingəçevir yaşayış yerinin eneolit (mis-daş) mədəni təbəqələrindən aşkar edilmişdir. III-V əsrlərdə Atropatena və Albaniyada əkinçilik və maldarlıqla yanaşı, sənətkarlığın toxuculuq sahəsinin inkişafı barədə antik və orta əsr müəllifləri (Herodot, Ksenefont, Klavdi Ellian, M.Kalankatlı), həmçinin ölkəmizdə olmuş səyyahlar (M.Polo, A.Cenginson, A.Oleari və b.) da geniş məlumat vermişlər [7, 88].

*Əsas hissə.* Azərbaycanda xalçaçılığın təşəkkülünü şərtləndirən təbii iqlim şəraiti, təsərrüfat və məişət amilləri tədricən Quba, Şirvan, Bakı, Gəncə, Qazax, Qarabağ, Təbriz kimi xalça və xalça məmulatları istehsalı mərkəzlərinin yaranmasına səbəb oldu. Həmin mərkəzlərin hər birində xalça məmulatlarının bu və ya digər növünə, yaxud tipinə üstünlük verilir, istehsal edilən xalçalar və xalça məmulatları öz kompozisiya-ornament və kolorit xüsusiyyətləri ilə seçilirdi [2, 21].

XVIII əsrin II yarısında Azərbaycan ərazisində xanlıqların yaranması dövründə xalça istehsalı xeyli genişlənmiş, hər xanlığın özünün xalçaçılıq karxanası olmuşdur. Həmin dövrdə xalçaçılıq sənətinin inkişafı gələcəkdə xalçaçılıq məktəblərinin adının yaranmasına zəmin yaratdı [9]. Bədii-texniki xüsusiyyətlərinə görə Azərbaycanda dörd böyük xalçaçılıq məktəbi mövcud olmuşdur: Təbriz, Quba-Şirvan, Qarabağ və Gəncə-Qazax. Bu məktəblərin hər birinin bir sıra məhəlli istehsal mərkəzləri və çoxlu çeşniləri yaranmışdır [1, 451].

Azərbaycanda xalçaçılıq sənətinin inkişafında Gəncə xalçaçılıq məktəbinin öz yeri var. Tarixə nəzər salsaq görərik ki, hələ qədim zamanlardan Gəncə bölgəsi əhalisinin məişətində xalça və xalça məmulatları əsas yer tutmuşdur. Mənbələrin verdiyi məlumata görə, orta əsrlərdə, xüsusilə X–XI əsrlər ərzində Gəncədə istehsal olunmuş yun parçalar, geyimlər, ipək xalçalar böyük məşhurluğa malik olmuş və geniş yayılmışdır [6, 108]. Əsrlər boyu yüksək keyfiyyətli xalça istehsalı mərkəzi olan Gəncədə xüsusi xalça emalatxanaları olmuşdur [10].

XIII əsrin sonu XIV əsrin əvvəllərində Gəncədə toxuculuq ən geniş yayılmış sənətkarlıq sahələrindən biri idi. XV əsrdə Gəncə artıq mühüm toxuculuq mərkəzi sayılırdı. Bakuvi qeyd edirdi ki, Gəncə sakinləri ipək qurdunun yetişdirilməsində və ipəyin hazırlanmasında mahir idi. XVI –XVII əsrlər isə Azərbaycan xalçaçılıq sənəti tarixində ən zəngin dövrlərdən hesab olunur ki, Gəncə şəhəri də bu zaman öz xovlu xalçaları ilə şöhrət tapmışdı [3, 124, 355].

Gəncə şəhəri və ona yaxın kəndlər, həmçinin Gədəbəy, Goranboy, Şəmkir və Samux rayonlarının ərazilərini əhatə edən xalçaçılıq məktəbinin əsas mərkəzi Gəncə şəhəri olmuşdur. Azərbaycanın müxtəlif xalçaçılıq qrupları ilə sıx əlaqəsi olan Gəncə xalçalarının, bu ərazidə yaşayan insanların düşüncə və hisslərinin əsas müstəvisi kimi çıxış etdiyini söyləmək olar. Gəncə xalçalarının naxışları əsasən həndəsi formalı bəzək elementlərindən ibarətdir. Onların heç biri sadə görüntü olaraq vizual məna kəsb etmir. Hər bir naxışın öz mənası və təyinatı vardır. Gəncədə toxunan xalçalar üzərində hicri təqvimi ilə onun istehsal tarixi, ustanın adı, mənsubiyyət bildirən şərti nişanlar toxunmuşdur. Zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng kompozisiyasının həllinə çox çeşidli boyalar bəxş etmişdir. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır [5, 21].

Xatırladaq ki, Azərbaycan xalçaları texniki baxımdan xovlu və xovsuz növlərə bölünür. Xovsuz xalçalar toxuculuq sənətinin, demək olar ki, ən erkən dövrünə təsadüf edir. Azərbaycanda bu dövrdə yüksək keyfiyyətli xovlu xalçalarla yanaşı, külli miqdarda xovsuz xalça məmulatı -palaz, cecim, kilim, şəddə, vərni də istehsal olunurdu. Gəncə şəhəri də xovsuz xalça məmulatı istehsalının çox şöhrət tapdığı şəhərlərdən biridir. Xovsuz xalçalar nisbətən sadə və az bəzəkli toxunsa da, rəngləri və bəzəklərinin sxematik bir tərzdə ifadəsi ilə diqqəti cəlb edir. Xovsuz xalça məmulatı üzərində bir qayda olaraq, rəngli zolaqlara, dördbucaq, paxlava, çarpaz, qıvrım xətlərə və s. həndəsi fiqurlara rast gəlirik. Mənşəyi etibarilə qədim dövrlərə aid olan sxematik bəzəklər əslində real varlıqda rast gəldiyimiz əşyaları təsvir edir. Xovsuz xalçalarımızın bəzək xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, onlar xovlu xalçaların üzərindəki nəbati ornamentlər kimi, başqa bəzək ünsürləri ilə bağlı olmur, hər bir ornament ünsürü nisbətən sərbəst təsvir olunur [4, 148].

Xovlu xalçalar isə toxuculuq sənətinin inkişaf etmiş mərhələsinin məhsuludur. Sadə xovsuz xalça toxunuşundan, ağır, xovlu xalça toxunuşuna keçilməsinin başlıca səbəbi iqlim

şəraiti ilə əlaqədar olmuşdur. Lakin bədiilik hissi, gözəllik duyğuları, insanın həyatda yaratdığı hər bir əşyada əbədiliyi görmək istəyi xalq ustalarını naxışların zərif nüanslarını verməyə imkan yaradan, təbiətin zəngin boyalarını, rəng çalarlarını canlandırmağa qadir olan, əşyaya davamlılıq keyfiyyəti gətirən toxunuş üslubu axtarıb tapmağa sövq etmişdir. Müəyyən tətbiqi sahələri olan müxtəlif ölçülü xalçalar belə toxunmuşdur [2, 23-24].

Gəncə xovlu xalçaları nisbətən uzunsoz, xovlarının hündür olmaları, seyrək ilmə sıxlığı və naxışlarının iriliyinə görə seçilir. Bu qrupa məxsus xalçalarda özünəməxsus fərdi kolorit həlli vardır [11].

Gəncə xalçaçılıq məktəbinə daxil xovlu xalçalardan olan "Qədim Gəncə xalçaları" şəhərin xalçaçılıq məktəbinin yüksək keyfiyyətli xalçalar kateqoriyasına aiddir. Xalçalar adını Qədim Gəncə şəhərinin adından almışdır. Sənətşünaslar tərəfindən "Gəncə xalçaları", "Gəncə-şəhər xalçaları", həmçinin "Gəncə-buta xalçaları" və ya "Butalı Gəncə xalçaları" adlandırılan "Qədim Gəncə xalçaları" Gəncə şəhərində, həmçinin şəhərdən 40 şimal-qərb istiqamətində yerləşən Şəmkir rayonunda və Gəncə ətrafı xalçaçılıq məntəqələrində istehsal olunmuşdur.

Adətən, Qədim Gəncə xalçalarının orta sahəsinin kompozisiyası "Gəncə-buta" adlanan sıraya düzülmüş butalardan ibarət olur. Sadə forması və rəgarəngliyi ilə Bakı, Sərab, Şirvan butalarından fərqlən "Gəncə-buta" adlanan butalarla toxunmuş xalçalar daha çox tanınır (Şəkil 1). Gəncə xalçaçılıq məktəbinə xarakterik olan "Gəncə-buta" adlanan bu elementlər bəzi hallarda diaqonal üzrə düzülür.



Şəkil 1. (Buta dizaynlı).

Orta sahənin sol və sağ tərəflərində "pəncə" adlanan təsvir olan xalçalarda istehsal edilirdi. "Pəncə" adlanan təsvir dini xarakter daşıyır (şəkil 2).



Şəkil 2. (Pəncə dizaynlı).

Orijinal xüsusiyyətləri olan Qədim Gəncə xalçalarının orta sahəsinin kompozisiyası düzbucaqlı elementlərdən, yaxud müxtəlif enli və ensiz zolaqlardan ibarət idi. Qədim Gəncə xalçalarının köbə haşiyəsi Gəncə xalçaçılıq məktəbinin xalçalarına xarakterik olan köbə zolaqlarından ibarətdir [6, 112].

Gəncə xalçaçılıq məktəbinin Gəncə qrupuna daxil olan xovlu xalçalardan biri də Fəxralı xalçaları kimi tanınır. Xalçalar öz adını Gəncə şəhərindən 25 km şimal-şərqdə, indiki Goranboy rayonunun ərazisində yerləşən Fəxralı kəndinin adından almışdır. Bu kənddə hazırlanan xalçalar qədim dövrlərdən Gəncə zonasının ən yaxşı xalçaları kimi məşhurdur. Qocaman xalçaçılar indiyə qədər bu xalçanı "Gəncə-fəxri" adlandırırlar. Fəxralı xalçaları Gəncə xalçalarının yüksək keyfiyyətli xalçalar kateqoriyasına aiddir [6, 117].

Fəxralı xalçaları dini mərasimlərdə, eləcə də namaz qılma mərasimində istifadə olunduğu üçün əsasən kiçik ölçüdə hazırlanırdı. Bu səbəbdən də Fəxralı xalçaları xalq arasında "Çaynamaz" və ya "Ceynamaz" (namaz qılınan yer) kimi də adlandırılmışdır (Şəkil 3). Xalçanın orta sahəsinin yuxarı hissəsində yerləşən tağ görünüş və formasına görə müsəlman Şərq mümarlığı elementlərini, xüsusilə məscidlərin cənub hissəsində yerləşən mehrabı xatırladır. Tağ və ya mehrab detalını Azərbaycanın Şirvan, Qarabağ və Təbriz xalçaçılıq məktəblərinə aid olan başqa xalçalarda da görmək mümkündür [6, 118].



Şəkil 3.

Ümumilikdə, Gəncə xalçaçılıq məktəbinə daxil olan "Gəncə", "Köhnə Gəncə" (Qədim Gəncə), "Çıraqlı" (şəkil 4), "Çaylı" (şəkil 5), "Gədəbəy" (şəkil 6), "Şadılı" (şəkil 7), "Samux" (şəkil 8), "Faxralı" kompozisiyalı xalçalar digər xalçalardan ənənəvi motivlərin özünəməxsus işlənməsi ilə seçilirdi [2, 22].



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.



Şəkil 7.



Şəkil 8.

Texniki xüsusiyyətlərinə gəlincə, Qədim Gəncə xalçaları daha çox orta ölçüdə istehsal olunurdu. Bu xalçaların ölçüsü əsas etibarilə çox da böyük olmur. XIX əsrin ikinci yarısında və XX əsrin əvvəlində uzunsov formalı Qədim Gəncə xalçaları da istehsal olunurdu. Qədim Gəncə xalçalarının ölçüləri 100 x150 sm-dən 150 x 220 sm-ə qədər ölçülər arasında dəyişir. Qədim Gəncə xalçalarında bir kvadrat desimetrdə ilmələrin sıxlığı 32 x 32 ilmədən 38 x 38 ilməyə qədər yerləşir. Bir kvadrat metrdə isə 102 ilmədən 144 min ilməyə təsadüf edilir. Qədim Gəncə xalçalarında xovun hündürlüyü 6-8 mm olur [6, 113].

Gəncə xalça sənətinin sonrakı inkişaf dövrü XX əsrin ortalarına təsadüf edir. Bu dövrdə Azərbaycan xalça sənətinin inkişafı bir neçə istiqamətdə davam edərək, çox cəhətli xarakter daşımışdır. Gəncə xalçaları sovetlər dönəmində də şöhrət qazanmışdı. Şəhərdə ən böyük istehsal gücünə malik olan xalça kombinatının məhsulları nəinki müttəfiq respublikalara, eyni zamanda xarici ölkələrə də ixrac edilirdi. İkinövbəli sistemlə işləyən kombinatda nəhəng dəzgahlarda toxunan xalçalara, demək olar, hər yerdə tələbat var idi. Xalçalar dəzgahlarda toxunsa da, xalçalarda Gəncə xalçaçılıq məktəbinin ənənələri qorunurdu [8, 111].

Qeyd etmək lazımdır ki, bu gün dövlətimiz tərəfindən mənəvi dəyərlərin, mədəniyyətin, incəsənətin, eləcə də xalçaçılıq sənətinin inkişafına diqqət və qayğı günbəgün artır. Azərbaycanın qeyri-maddi mədəni irs nümunələrinin qorunmasında, beynəlxalq aləmdə tanıdılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri danılmazdır. Ölkəmizin tarixini, milli mənşəyini, mədəniyyətini özündə əks etdirən xalçaçılıq sənətinin dünyanın qeyri-maddi mədəni irsinin inciləri sırasına — UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısı"na daxil edilməsi dünyanı heyrətləndirən, vətənimizi şöhrətləndirən sənət növünün yüksək dəyərləndirilməsinin bariz nümunəsidir [12].

## *Nəticə*

Tətbiqi sənət növünün zirvəsi hesab olunan xalçaçılıq sənəti şərqin elm, mədəniyyət mərkəzlərindən olan Gəncədə də tarixən inkişaf etmiş və şöhrət qazanmışdı. Qədim zamanlardan Gəncə bölgəsi əhalisinin məişətində xalça və xalça məmulatları əsas yer tutmuş, bu ərazidə yaşayan insanların düşüncə və hisslərinin əsas müstəvisi kimi çıxış etmişdir. Əsrlər boyu yüksək keyfiyyətli xalça istehsalı mərkəzi olan Gəncədə xüsusi xalça emalatxanaları olmuşdur. Azərbaycanda xalçaçılıq sənətinin inkişafında öz yeri olan Gəncə xalçaçılıq məktəbi ətrafında olan rayonların xalçaçılığına müsbət təsir göstərmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2007, 544 s.
2. Azərbaycan xalçası: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.Bakı, 2012. 469 s.
3. Azərbaycan tarixi. Yeddi cilddə, III cild (XIII-XVIII əsrlər). Bakı, Elm, 2007. 592 s. + 56 s. illlüst.
4. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, "Şərq-Qərb", 2007, 160 s. + 112 s. (illüst.)
5. İ sayev, Ə. Kirovabad (indiki Gəncə) xalçasının şöhrəti. Bakı: Azərnəşr, 1978. 44 səh.
6. Керимов Л. Азербайджанский ковёр. Том III. II. Б.: "Гянджлик", 1983.279 səh.
7. Nəsirova S. Azərbaycan toxuculuq nümunələrindəki naxışların semantikası. "Bakı Mətbəəsi" ASC. Bakı: 2021, 294 s.
8. Rəsulova N. Cəncə-qədim xalça sənətinin mərkəzi kimi. GDU, Elmi xəbərlər № 2. Gəncə, 2021.
9. https://azerbaijan.az/related-information/49
10. file:///C:/Users/AVM/Downloads/Azerbaycan_xalchalari.pdf
11. https://intangible.az/front/az/aboutExample/21819

12. https://edebiyyat.az/palitra/633-xalca-milli-tefekkur-terzimiz.html

УДК 39

*С.А.Гасымова*
*Гянджинскot отделенit НАНА*
*Азербайджанский Государственный Аграрный Университет*

# ИЗ ИСТОРИИ РАЗВИТИЯ ГЯНДЖИНСКОЙ ШКОЛЫ КОВРОТКАЧЕСТВА

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, ковровое искусство, Гянджинская школа ковроткачества, ковры и ковровые изделия, дизайн узоров, уникальность

Известно, что искусство ковроткачества занимает уникальное место в истории национальной культуры Азербайджана. Ковроткачество, на протяжении веков занимавшее прочное место в жизни азербайджанского народа, стало символом национализма. Археологические исследования и письменные источники подтверждают, что этот древний вид искусства принадлежит далекому прошлому. Природно-климатические условия, экономические и бытовые факторы, обусловившие формирование коврового производства в Азербайджане, постепенно привели к созданию таких центров производства ковров и ковровых изделий, как Губа, Ширван, Баку, Гянджа, Газах, Карабах, Тебриз. В каждом из этих центров предпочтение отдавалось тому или иному виду или типу ковровых изделий, выпускаемые ковры и ковровые изделия отличались друг от друга своими характеристиками.

В Гяндже, одном из древних центров науки и культуры Азербайджана, исторически сложилось и приобрело известность искусство ковроткачества. Ковры и ковровые изделия с древних времен играли важную роль в жизни жителей Гянджинского региона. В Гяндже, которая на протяжении веков была центром производства высококачественных ковров, существовали специальные ковровые мастерские. Гянджинская школа ковроткачества охватывает территорию города Гянджи, окрестных сел, Гедабейского, Геранбойского, Шамкирского и Самухского районов, расположенных на северо-западе Азербайджана. Центром этой школы был город Гянджа. Исторически эта школа оказала положительное влияние на ковроткачество в регионах вокруг Гянджи. Композиционные ковры «Гянджа», «Старая Гянджа», «Гедабек», «Чайли», «Чираглы», «Самух», «Шадыли», «Фахралы», входящие в Гянджинскую школу ковроткачества, отличались от других ковров своей уникальной обработкой. традиционных мотивов.

UDC 39

*S.A.Gasimova*
*Ganja Branch of ANAS*
*Azerbaijan State Agrarian Universiti*

# FROM THE HİSTORY OF THE DEVELOPMENT OF GANJA CARPET WEAVİNG SCHOOL

*SUMMARY*

*Key words:* Azerbaijan, carpet art, Ganja carpet weaving school, carpet and carpet products, pattern design, uniqueness

It is known that the art of carpet weaving occupies a unique place in the history of national culture of Azerbaijan. Carpet weaving, which has taken a strong place in the life of the Azerbaijani people for centuries, has become a symbol of nationalism. Archeological research and written sources confirm that this ancient art form belongs to the distant past. The natural climatic conditions, economic and household factors that determined the formation of carpet production in Azerbaijan gradually led to the creation of carpet and carpet products production centers such as Guba, Shirvan, Baku, Ganja, Gazakh, Karabakh and Tabriz. In each of those centers, one or another type or type of carpet products was preferred, the produced carpets and carpet products were distinguished from each other by their characteristics.

In Ganja, which is one of the ancient science and culture centers of Azerbaijan, the art of carpet weaving has historically developed and gained fame. Since ancient times, carpets and carpet products have played a major role in the lives of the people of Ganja region. Ganja, a center of high-quality carpet production for centuries, has had special carpet workshops. Ganja carpet weaving school covers the territory of Ganja city, its surrounding villages, Gadabey, Goranboy, Shamkir and Samukh districts located in the north-west of Azerbaijan. The center of this school was the city of Ganja. Historically, this school has had a positive impact on carpet weaving in the regions around Ganja. “Ganja”, “Old Ganja”, “Gadabey”, “Chayli”, “Chiragli”, “Samukh”, “Shadıli”, “Fakhralı” composite carpets included in the Ganja carpet weaving school were distinguished from other carpets by their unique processing of traditional motifs.

***Daxil oldu: 16.09.2024-cü il***